

**Nərgiz Axundova**
*Azərbaycanın VII-XIV əsrlər tarixi şöbəsinin müdiri,*
*Akademik*

## Səlcuqlular. Eldənizlər (Atabəylər) dövləti. Azərbaycan torpaqlarının siyasi cəhətdən birləşdirilməsi

### *Səlcuqlular. Azərbaycan Səlcuq imperiyasının tərkibində*

1038-ci ildə Türküstanda (Cənubi Qazaxıstan) səlcuqluların başçılıq etdiyi oğuzlar və bir sıra digər türk tayfaları paytaxtı Nişapur olan geniş və qüdrətli Səlcuq imperatorluğu (1038-1157) yaratdılar. Hələ dövlətlərinin yaranmasından əvvəl, 1034-cü ildə səlcuqlular Sultan I Məsud Qəznəvini (1031-1041) məğlub edərək Xorasanı işğal etmişdilər. Bundan sonra başçıları Toğrul bəy və Çağrı bəy qardaşları yeni əraziləri ələ keçirdilər və 1038-ci ildə Toğrul bəy özünü ilk böyük Səlcuqlu sultanı (1038-1063) elan etdi. 25 may 1040-cı ildə orta əsrlər tarixinin mühüm hərbi-siyasi hadisələrdən biri baş verdi: Mərv (indiki Marı, Türkmənistan) şəhəri yaxınlığındakı "Dəndənakan" adlı yerdə baş verən həlledici döyüşdə səlcuqlular Qəznəvi Sultanlığı üzərində əlamətdar qələbə qazandılar. Bundan sonra onların Qərb istiqamətində fəth və köç hərəkatı başladı. Səlcuqlular monqol-tatar istilalarına qədər Azərbaycan da daxil olmaqla, Şərqdəki bir çox xalqların və dövlətlərin taleyində mühüm rol oynadılar. Elə o vaxtlardan Ön Asiyada, o cümlədən Qafqazda yerləşmiş türk tayfalarının yeni bir köç dalğası başladı.

XI əsrin 40-cı illərinin ikinci yarısında səlcuqlular Cənubi Azərbaycanı tutdular və oradan şimala yürüş etdilər. 1054-cü ildə səlcuqlular İranı özlərinə tabe etdilər, bundan sonra Cənubi Qafqaza daxil oldular. 1060-cı ilin aprelində Sultan Toğrul bəy Təbrizi mühasirəyə aldı, lakin tuta bilmədi. Buna baxmayaraq, şəhərin hakimi Əmir II Məmlan Rəvvadi onu süzeren kimi tanıdı. 1063-cü ilin yayında Toğrul bəy Azərbaycanın başqa bir şəhərinə – Xoya yaxınlaşdı və 10 min dinar xərac tələb etdi.

Alp Arslan 1063-cü ildə Böyük Səlcuqlu sultanı (1063-1072) oldu. Onun rəhbərliyi altında İrandan Qafqaza sistematik -hücumlar başlandı. Sultanın hacibi Sav Təgin Xəzər sahili boyunca Dərbəndə yola düşdü. O, Şirvan dövlətinin bir hissəsi olan Musqət bölgəsinə daxil oldu və oranı qarət etdi. 1064-cü ilin noyabrında Sultan Alp Arslan xərac ödəməkdən imtina etdiyi üçün cəzalandırılan, əvvəllər Toğrul bəyə itaət etməyən Xoy şəhərinə yaxınlaşdı. Bu dəfə də şəhər hakimi, ənənəni pozaraq,

səlcuqluların pişvazına çıxmadı, sənətkarlar və tacirlər dükanları qapatdı və səlcuqlu əsgərlərinə heç nə vermədilər.-Onlar Alp Arslana şikayət etdilər və sultan əsgərlərinə şəhər əhlinin evində gecələməyə və ehtiyac duyduqları hər şeyi qənimət götürməyə icazə verdi. Qarət və qətllər başladı, şəhər sakinlərinin bir qismi qaçdı.

1066-cı ildə səlcuqluların Qafqaza yürüşləri davam etdirildi. Təhlükədən qurtulmaq istəyən Şirvanşah I Fəribürz onların başçısı Əmir Qara Təginə qiymətli bəxşiş verdi və o, çıxıb-getdi. Ancaq həmin ilin sonunda vəziyyəti öz xeyrinə istifadə etməyə qərar verən şirvanşahın üsyankar əmisi Məmlanın müşayiəti ilə Qara Təgin yenidən burada göründü. Paytaxt Şamaxı mühasirəyə alındı və şəhər ətrafı talan olundu. Şamaxının mühasirəsi inadla davam etdirilsə də, növbəti dəfə uğursuz oldu. O zaman səlcuqlular hiylə işlətdilər. Onlar yalandan şirvanşahın və Qara Təginin əmisini həbs etdilər və onu təhvil almaq üçün şirvanşahın meydana çıxmasını istədilər. Ancaq şirvanşah bu bəsit hiyləyə aldanmadı, səlcuqlular ümidsiz mühasirəni davam etmək məcburiyyətində qaldı. Tezliklə şirvanşahın özü səlcuqluların təzyiqindən qurtulmaq üçün bir sıra -pərdəarxası manevrlər etdi. 1067-ci ilin fevralında Şamaxıya gələn hacibə gizli şəkildə 6 min dinar göndərildi və bunun qarşılığında üsyankar əmisini təhvil almaq istədi. Hacib rüşvəti aldı və elə etdi ki, Məmlan I Fəribürzün adamlarının qurduğu pusquya düşsün. Şirvanşahın adamları dərhal onu qətl etdi və cəsədi Şamaxıya çatdırdılar. Rüşvətin səmərəsindən əmin şirvanşah üsyankar qohumunu dəfn etdi. Düşmənin həm güclü, həm də zəif cəhətlərini bilən belə bir lazımlı müttəfiqi itirən səlcuqlular mühasirədən əl çəkmək məcburiyyətində qaldı və cənuba, Kürün o tayına çəkildilər[1].

Şirvanşah I Fəribürzün xarici siyasət uğurları Şirvan dövlətinin başında incə bir siyasətçi və vəziyyəti düzgün qiymətləndirən uzaqgörən bir diplomatın olduğunu göstərir. O,böhranlı vəziyyətin öhdəsindən gələ bildi, qəti addımlarla üsyan edən qohumlarını cilovladı, səlcuqluları təsirsiz hala gətirdi, -mülkiyyətini və müstəqilliyini qorudu. Buna baxmayaraq, 1067-ci ilin sonunda Sultan Alp Arslan Cənubi Qafqazda yenidən görünəndə, Şirvanşah hədiyyələrlə onun yanına gəldi və 1068-ci il hərbi yürüşündə onu müşaiyət etdi. Səlcuqluların əvvəlki hücumları və yürüşləri ilə yanaşı, üsyanlara görə də tükənən Şirvan dövləti müqavimət göstərmək üçün kifayət qədər gücə sahib deyildi. Beləliklə, həmin vaxtdan etibarən şirvanşahların Səlcuqlu dövləti süzereni olmasını qəbul etmək mümkündür. I Fəribürzün xəlifə əl-Müqtədi Abbasi (1075-1094) və Böyük Səlcuqlu sultanı Məlikşahın (1072-1092) adları həkk olunmuş sikkələri də vardır.

Buna baxmayaraq, 1068-ci ildə şirvanşah yenidən Dərbəndə və onun Bab əl-Əbvab vilayətinə sahib oldu. Burada qalada qalan, onu bərpa etmək və möhkəmləndirmək üçün çoxlu səy göstərən oğlu Afridun hakimlik etməyə başladı. Lakin sultan 1069-cu ildə bu mühüm hərbi-strateji və sənətkarlıq-ticarət mərkəzini ələ

---

[1] Минорский В.Ф. История Ширвана и Дербента X-XI вв. Москва, 1963, с.58-59.

keçirən sərkərdəsi Sav Təgini Dərbəndə göndərdi. Tezliklə Sav Təgin oranı tərk etdi və şəhər yenidən I Fəribürzün mülkiyyətinin bir hissəsinə çevrildi. Sonra səlcuqlular silahlarını Gürcü çarlığına qarşı çevirdilər. Bundan istifadə edən şirvanşah bir sıra qonşu əraziləri mülklərinə birləşdirdi. 1072-ci ildə “əhdnamə mülkləri” kimi Arran və Muğan, eyni zamanda, Beyləqan və Gəncə üzərində süzerenliyini bərqərar etdi və Cənubi Dağıstanda Şirvanın təsirini gücləndirdi.

Alp Arslandan sonra oğlu Məlikşah (1072-1092) Böyük sultan oldu. Onun hökmranlıq dövrü Səlcuqlu dövlətinin qüdrətinin və ərazisinin genişlənməsinin ən yüksək zirvəsi oldu.-Yeni sultanın ilk addımlarından biri səlcuqluların Azərbaycanda mövcudluğunu gücləndirmək, bu ölkənin şimal hüdudları və Qafqazdakı yolların təhlükəsizliyini təmin etmək məqsədli hərbi kampaniyası oldu. 1074-cü ildə səlcuqlu əmiri Arqar ibn Buğa Şirvan dövlətinə gəldi.

Şirvan dövlətinin cənub sərhədi Kürlə üst-üstə düşür və çay onu 969-cu ildə Deyləmi Müsafirilərini buradan qovan Arranın Şəddadi mülklərindən ayırırdı. XI əsrdə Şəddadilər Şirvanşahlar üçün səlcuqlulardan heç də az təhlükə törətmirdilər. Səlcuqlular şəddadilərdən Cənubi Qafqazda yardımçı hərbi qüvvə kimi istifadə edirdi. 1063-cü ildə Əbüləsvar Şəddad Şirvan hüdudlarına üç dəfə basqın etdi, 1065-ci ildə isə -Məsqəti təhdid etdilər. Üstəlik, 1069-cu ildə Fəzl ibn Əbüləsvarın adı Dərbənddə oxunan xütbədə çəkilmişdir. Buna baxmayaraq, Şirvanşahlar hələ Kür çayının Arazla qovuşmasına qədərki aşağı axarını nəzarətdə saxlayırdılar. 1075-ci ildən səlcuqluların artıq ehtiyac duymadıqları Şəddadilərin Arran əmirliyini ləğv edəndən sonra isə Şirvanşahlar bu təhlükədən xilas oldular.

Səlcuqlular və Azərbaycanla əlaqəli daha bir hadisə qeyd edilməlidir. 1100-cü ildə Məlikşahın oğlanlarından biri taxt-taca haqqını elan etdi. Bu, atasının Gəncədə iqamət etməklə, Arran və Naxçıvanı idarə etmək üçün göndərdiyi Məlik Məhəmməd idi. Xəlifə ona da təsdiqnamə (mənşur) verdi, bundan sonra Məhəmməd Azərbaycan əmirləri tərəfindən dəstəklənərək Səlcuqlu dövlətinin Nişapur və Reydən sonrakı paytaxtı İsfahanı ələ keçirdi. Sultan Börkiyarıq İsfahanı geri qaytara bildi, lakin ögey qardaşlar arasındakı mübarizə 1104-cü ilə qədər davam etdi və iddiaçının Suriya, Fəratboyu ərazi və Cənubi Qafqaz üzərində nəzarəti ələ aldığı bir razılaşma ilə sona çatdı. Qardaşlar bərabərhüquqlu Böyük sultan sayılır və birinin adı digərinin mülkündəki xütbədə qeyd olunmurdu.

1118-ci ildə yaranan İraq Səlcuqlu Sultanlığı, 1104-cü il müqaviləsi ilə Məhəmmədin əldə etdiyi əraziləri əhatə etdiyindən, Səlcuqlu dövlətinin rəsmi olaraq bölünməsi Qafqaz üçün böyük əhəmiyyət kəsb etdi.

Bu iki böyük sultan arasında hakimiyyət uğrunda mübarizədə bir hal diqqət çəkir. Məhəmməd məğlubiyyətə düçar olsa da, Börkiyaruq onunla yumşaq davranmışdır. Bu, əvvəla, Məhəmmədin arxasında ona təsdiqnamə verən xəlifənin olması; ikincisi, Məhəmmədin müsbət münasibətlər qurduğu, hakimiyyətindən məmnun olan

Azərbaycan əmirləri və Gəncə sakinləri tərəfindən dəstəklənməsi ilə izah olunur.-Ola bilsin ki, bu səbəblərə görə böyük hörmət və nüfuz qazanmış Məlik Məhəmməd -o zamandan bəri Azərbaycan nağıllarının əsas müsbət qəhrəmanına-çevrilmişdir.

### *Şirvanşahlar və Eldənizlər (Atabəylər) dövləti*

### *Siyasi tarix*

Bir faktı da qeyd edək ki, XI əsrin ikinci yarısında Qafqaz çöllərini qıpçaqlar fəth etdi. Onlar aşağı Dondan Bab əl-Əbvaba (Dərbəndə) qədər geniş bir ərazini tutdu, sonra Cənubi Qafqazda məskunlaşmağa başladılar və regionda hərbi və siyasi cəhətdən fəal oldular. Lakin Dərbənd və vilayət Şirvanşahların təsir dairəsində qalırdı və bu vəziyyət 1068-ci ildən XIII əsrin əvvəllərinədək belə də qaldı. XII əsrin əvvəlləri üçün Şirvan dövlətinin sərhədləri şimalda Samur çayından cənubda Kürə, şərqdə Xəzər dənizindən qərbə Şəki-Mingəçevir-Gəncəyə qədər uzanırdı. Eyni zamanda, Dərbənd və vilayəti, əvvəllər Albaniya çarlığının olduğu kimi, Şirvan dövlətinin tərkib hissəsi idi. Şirvanşah I Afiridunun (1106-1120) hakimiyyəti illərində Şirvan dövləti Gürcü Carlığı ilə Səlcuqlulara qarşı ittifaqıa girmiş oldu .XII əsrin 30-cu illərində isə onun varisi Minuçehr( 1132-1175) Arranın bir hissəsini də ələ keçirmiş, eyni zamanda şirvanşahlar Bakının indiki müdafiə divarlarını da ucaltmışlar. XII –ci əsrdən isə Şirvan dövlətinin tarixi və taleyi Eldənizlər dövləti ilə bağlı olmuşdur. Həmin vəziyyət 1191-ci ilə qədər davam etmiş və ancaq 1191 ildə, sultan Qızıl Arslanın həlak olmasından sonra, şirvanşahlar yalnız öz adları üzərində olan sikkələr zərb etməyə başlamışlar və Azərbaycanın monqollar tərəfindən işğalıda qədər öz müstəqilliyini saxlamışlar.

Məlumdur ki ,Məhəmməd dövlətin ərazisinin bir hissəsi oğlu məlik Mahmuda miras qoydu və 1118-ci ildə, ölümündən sonra Mahmud (1118-1131) özünü sultan elan etdi. Bununla da paytaxtı Həmədan şəhəri olan yeni Səlcuqlu dövləti -İraq Sultanlığı (1118-1194) meydana gəldi. O, İraqi-Əcəm, Azərbaycan, Gürcüstan, İran və bir sıra digər ərazilərdən ibarət idi. Lakin dövlətin faktiki rəhbərləri Azərbaycan Eldəniz atabəyləri idi. O zaman Eldəniz mülkləri İraq Sultanlığının tərkib hissəsi deyildi, əksinə, İraq Cənubi Dağıstan, Azərbaycan və İranın bir hissəsini əhatə edən Eldənizlər dövlətinin bir hissəsi oldu.

Qafqaz və Səlcuqlular tarixindəki bu hərc-mərclik dövründə Qıpçaq Eldəniz məşhurlaşdı. O, İraq Sultanlığında qulam olaraq meydana çıxdı. 1132-ci ildə, I Toğul dövründə əmir rütbəsi aldı və oğlu Arslan şahın atabəyi vəzifəsini tutdu. 1136-cı ildə Sultan Məsud Eldənizi Bərdədə iqamət etməklə Arran atabəyi təyin etdi. Eyni zamanda, ona bir tuğra (möhür), bir üzük təqdim olundu və Şəmsəddin (Dinin günəşi) ləqəbi (fəxri adı) – Səlcuqluların rütbə cədvəlinə görə, valilərə xas atributlar verildi.

Eyni zamanda, Eldəniz öz adına sikkə zərb etmək hüququ aldı və I Toğrulun dul arvadı Möminə xatunla evlənərək İraq Səlcuqluları ilə qohum oldu. Beləcə, 1136-cı ildə Eldənizlər sülaləsinin (1136-1225) əsasını qoyan Eldənizin yüksəlişi başladı.

O zaman Gəncə və Təbrizdəki iqamətgahları ilə Cənubi Azərbaycanın atabəyi qüdrətli əmir Qara Sonqur idi. Eldəniz 1140-cı ildə onun ölümündən sonra hadisələrə qatıldı, çünki vəzifəni və Qara Sonqura məxsus torpaqları alan məhz o idi. 1146-cı ildə isə Naxçıvan atabəyi Cavlı öldükdə, Eldəniz bu ərazi üzərində də nəzarəti əldə etdi. Nəticədə, XII əsrin 40-cı illərindən etibarən, Şirvan dövləti istisna olmaqla, bütün Azərbaycanın hökmdarı oldu. Eldənizin Gəncə, Naxçıvan, Təbriz, Bərdə, Marağa, Ərdəbil və Beyləqanda bir neçə iqamətgahı var idi.

Fövqəladə hadisələrin ardınca Şəmsəddin Eldəniz bir sıra qətiyyətli addımlar atdı. Əmirlərin dəstəklədiyi çevrilişlə yetirməsi və ögey oğlu Arslan şahı (1160-1176) sultan elan etdi.

Həm Eldəniz, həm də oğulları-Cahan Pəhləvan və Alp Arslan Şirvan dövləti və Gürcü çarlığı, Bizans və İran, Ərəb Xilafəti və Kiçik Asiyanı nəzərdən qaçırmadan uğurlu xarici siyasət yürüdürdülər. Haşimi, Biş-Təgin, Muğan əmirləri və Fars atabəyləri özlərini Şirvanşahların deyil, Eldənizlərin süzerenləri sayırdı. Onun təsir dairəsində həm Şirvan dövləti, həm də səlcuqluların Kirman Sultanlığı və Təbəristan hakimləri, Mənqucuk, Artuqlu və Zəngi əmirləri var idi. Xarəzm dövləti onunla dostluq əlaqələri saxlayırdı. Səlcuqlu sultanları, Abbasi xəlifələri və çoxsaylı əmirlər kömək üçün Eldənizlərin ayağına gəlirdilər. Eldəniz özünə Arslan şahın “sultan atabəyi” titulunu verdi, ondan ehtimal ki, “dövlətin əsaslarını qoruyan” mənası daşıyan “böyük atabəy” titulu və ordu komandanlığını aldı.

Tezliklə sultanla böyük atabəy arasında qarşıdurmalar başladı, çünki söhbət Eldəniz Sultanlığına daxil olan geniş ərazidə həqiqi hakimiyyətə sahiblikdən gedirdi. Bu, Cənubi və Şimali Qafqazın bir hissəsi, eləcə də onlara bitişik xeyli ərazilər idi.

Toqquşmalara baxmayaraq, Eldəniz həm İraq Sultanlığı, həm də digər dövlətlərlə münasibətlərdə mövqeyini möhkəmləndirdi. Suriya və Mesopotamiyanın türk əmirləri onun xidmətinə gəldilər. Eldəniz Gürcü çarlığını zərərsizləşdirməyi bacardı[2]. Qeyd edək ki, yalnız onun köməyi ilə ən görkəmli və müvəffəqiyyətli Şirvanşah I Axsitan (1160-1196) taxt-taca sahib ola bildi.

Eldənizlərin və onların dövləti XII əsr Qafqaz tarixində əhəmiyyətli rolu numizmatik materiallar ilə də təsdiqlənir.[3]

Eldəniz 1175-ci ildə Eldənizlər sülaləsi və itaətkar vassalların başçılıq etdiyi geniş, güclü və mərkəzləşmiş bir sultanlığı özündən miras qoyaraq vəfat etdi. Məhz

---

[2] Рашид ад-Дин. Джами ат-таварих. T.I. кн.2. 1952, с.83; Chronique de Michel, p.710 Anonymi Auctoris. Chronicon ad A.C. 1234 pertinens. Pars posterior. Paris, 1916, p.174; Minorsky V. Studies in Caucasian History. London, 1953, p.93-94.

[3] Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. I–IX. Баку, 1926–1966; Раджабли А.М. Нумизматика Азербайджана. Баку, 1997, с.7, 8.

onun sayəsində Azərbaycan ilk dəfə demək olar ki, tamamilə bir hökmdarın – Şəmsəddin Eldənizin hakimiyyəti altında siyasi cəhətdən birləşdirildi.

Eldənizin xələfi, böyük oğlu Cahan Pəhləvan (1175-1186) idi. İraq sultanı Səlcuqi Arslan şah və bəzi əmirlər ona qarşı çıxdı və bütün Azərbaycanı ələ keçirməyə çalışdılar. Mübarizə dəyişkən müvəffəqiyyətlə davam etdi, lakin növbəti kampaniya zamanı Zəncanda xəstələnən Arslan şah Həmədana aparıldı və orada öldü. 1176-cı ildə Cahan Pəhləvan azyaşlı II Toğrulu (1176-1194) yeni sultan və özünü onun böyük atabəyi elan etdi.

O da Eldəniz kimi, müstəqil daxili və xarici siyasət yürütdü. Cahan Pəhləvanın baxışında təkcə Qafqaz deyil, ona bitişik ərazilər də var idi. O, Kiçik Asiyadakı Eldəniz vassalları – Bəy-Teymur əmirləri ilə ənənəvi əlaqələrini gücləndirdi, çünki onlara məxsus olan Araz vadisini Mesopotamiya ilə birləşdirən mühüm hərbi-strateji və ticarət-tranzit karvan yollarında yerləşən Xilat şəhərini diqqətdən kənarda saxlaya bilməzdi. Bəy-Teymurlar həmişə Eldənizlərlə birlikdə Gürcü çarlığına qarşı uğurla çıxış etmişlər.

Orta Asiya da Cahan Pəhləvanın təsir dairəsində idi. Xarəzmşah Təkiş (1172-1200) onunla "dostluq yazışmaları" aparmış, zəngin hədiyyələr göndərmişdir[4]. Qərbə yürüşləri zamanı Cahan Pəhləvan Suriya və Kiçik Asiyaya çatmışdır. Ordusu dəfələrlə Bizans İmperiyası və Ərəb Xilafəti hüdudlarına yürüşlər etmişdir. Cahan Pəhləvan, aralarında müsbət bir əlaqə olsa da, Əyyubi Sultanlığı ilə toqquşmalı olmuşdur. Səlibçilərin göz dağı Səlahəddin Əyyubi (1169-1193) Eldənizlərin Kiçik Asiyadakı təsir dairəsinə daxil olmağa çalışırdı. 1182-ci ildə o, Zəngi atabəylərinin mülkünə soxuldu, lakin müvəffəqiyyət qazanmadı.

Cahan Pəhləvanın hakimiyyətini Mosul və Fars atabəyləri, Bəy-Teymur əmirləri və Əhər məliyi, Xuzistan və Təbəristan hakimləri tanımışdır.

Cahan Pəhləvanın vəfatından sonra qardaşı Qızıl Arslan (1186-1191) böyük atabəy oldu. İraq sultanı II Toğrul Səlcuqi paytaxt Həmədandan Urmiyaya yola çıxdı və böyük atabəyə qarşı yürüş üçün güc toplamağa başladı. Döyüşlər təxminən -beş il davam etdi və Qızıl Arslan qalib gəldi. Paytaxt Həmədanda Qızıl Arslana xəlifə ən-Nasir Abbasinin (1180-1225) vəli (canişin) vəzifəsinə təyin edilməsi barədə fərmanı verildi. Əslində, bu akt Qızıl Arslanın müstəqil hökmdar elan edilməsi demək idi. 1191-ci ildə Qızıl Arslan sui-qəsd nəticəsində öldürüldü . Eldənizlər üçün o qədər də uğurlu olmayan dövr başladı. Cənubi və Şimali Qafqazın bir hissəsini əhatə edən geniş sultanlıq Qızıl Arslanın varisləri üçün idarəolunmaz hala gəldi. Səlcuqluların İraq Sultanlığı da dirçəlmədi və bu şərtlərdə Eldəniz Sultanlığının ərazisi, nominal İraq sultanı II Toğrul, Cahan Pəhləvanın oğulları – Əbubəkr, Qutluq İnanc, Əmiran Ömər və əmirlər arasında bölündü. Azərbaycan, böyük atabəy titulu və sultan atabəyi vəzifəsi

[4] Selcukname Anadoly Selcukluları Devleti Tarihi. III.Cilt.Ankara,1952,s.  .

və Eldənizlər ailəsindəki böyüklük nominal sultan Eldəniz Əbubəkrin (1191-1210) öhdəsinə keçdi.

-XII əsrin sonunda Qafqazda və qonşu bölgələrdə hərbi-siyasi vəziyyətin qeyri-sabitləşməsi baş verdi. Şirvanşah I Axsitan Əmiran Öməri özünə yaxınlaşdırdı, onu qızı ilə evləndirdi və ordu ilə təmin etdi. Çariça Tamara da onun üçün bir ordu topladı. Əmiran Ömər, müvəffəq olduğu təqdirdə, ələ keçirilmiş Azərbaycan torpaqlarını onlara təslim edəcəyinə söz verdi. 1194-cü ilin iyun ayında Şəmkir yaxınlığında Əmiran Ömər Əbubəkri məğlubiyyətə uğratdı, əsgərləri qətlə yetirdi, -sakinləri isə köləyə çevirməklə məşğul oldu. Nəticədə, Şəmkir, Beyləqan, Ərdəbil və Mərənd ziyan gördü. Yalnız Gəncə müqavimət göstərdi və Əmiran Ömər gürcü ordusunu geri çəkdi, bundan sonra şəhər sakinləri darvazaları onun üzünə açdılar. Lakin tezliklə Gəncə əhalisi onu qətlə yetirdi, çünki onlara zülm etməyə başlamışdı.[5]

1210-cu ildə hakimiyyətə gələn Özbək (1210-1225) Eldənizlərin son sultanı oldu. Onun hökmranlığı aramsız üsyanlarla və daxili müharibələrlə keçdi, Eldənizlərin hakimiyyəti və təsirinin daha da azalması dövrü oldu.

1225-ci ildə bölgə yeni bir təhlükə ilə qarşılaşdı. Son Xarəzmşah Cəlaləddin (1220-1231) Azərbaycana gəldi. Monqol-tatarların öz mülkündən qovduğu xarəzmşah Cənubi Qafqazı müvəqqəti olaraq özünə tabe etdirməyi bacardı. Onun himayəsini qazanmağa ümid edən Marağa sakinləri döyüşsüz təslim oldular. Özbəyin tərk etdiyi Təbriz bir həftə həmlələri dəf etdi. Bu şəhərə sahib çıxan Cəlaləddin sakinlərinə aman verdi. Elə həmin il o, Baqrationi çarlarının ordusunu məhv edərək Gürcüstanı işğal etdi; sonra Beyləqan və Şəmkir də daxil olmaqla, bir sıra Azərbaycan şəhərlərini ələ keçirdi. Tezliklə Gəncə Xarəzmşaha təslim oldu və burada olan Özbək Naxçıvan yaxınlığındakı Əlincə qalasına qaçdı, çox keçmədən öldü. Beləliklə, Eldənizlər dövləti süqut etdi.

### *Sosial-iqtisadi həyat*

Səlcuqlu işğalı fəth olunmuş Azərbaycan torpaqların sosial-iqtisadi həyatına güclü təsir göstərmədi ,ərazi orta əsr sosial -iqtisadi təkamülü axarında inkişaf etməyə davam edirdi.

XI-XII Azərbaycanın iqtisadi həyatının əsasını kənd təsərrüfatı və sənətkarlıq, köçəri maldarlıq təşkil edirdi. Müxtəlif rayonlar öz təsərrüfatçılıq xüsusiyyətləri ilə seçilirdi. Şirvanda, Şəkidə, Gəncədə ipəkcilik geniş yer almış, bununla yanaşı meyvə bağları da yayılmışdır. Şirvan, Muğan, Mil düzlərində əhali maldarlığın bütün növləri ilə, Xəzər, Kür, Araz ətrafında yaşayanlar isə balıqçılıqla məşğul olmuşdur. Məhsulların bir hissəsi dünya bazarlarına çıxarılırdı.

Bu dövrdə Azərbaycanda məhsuldar qüvvələrin inkişafı və əmtəə mübadiləsi şəhərlərin də böyüməsinə və inkişafına şərait yaratdı. Əhalisinə, strateji mövqeyinə,

---

[5] Sadruddin, Ahbar üd-Devlet is-Selcukiyye.Çeviren N.Lüğal.Ankara.1943, s.130-132.

dünya ticarət yolunun üzərində yerləşdiyinə görə Gəncə Orta Şərqin ən böyük şəhərinə çevrilmişdi. Naxçıvan, Təbriz, Şamaxı kimi paytaxt şəhərlər sənətkarlıq, ticarət və mədəniyyət mərkəzləri idi. Bakı nefti, kürəsi, duz və balığı ilə məşur idi və XII əsrdə Şirvanşahların ikinci paytaxtı oldu. Ön Asiyanın iri şəhərlərindən olan Təbriz isə XII əsrdə yerlı və beynəlxalq ticarət və sənətkarlıq mərkəzinə çevrildi və burada hətta yadellılərdə məskunlaşmağa. Şəhərlərin hamısında bazarlar həm alış-verış və ictimai həyat, həm də əmtəə pul mübadiləsi mərkəzi kimi fəaliyyət göstərirdilər.

Vergi sisteminə gəlincə, burada ən əsası torpaq vergisi-xərac idi, onu həm məhsul payı ilə, həm də pulla ödəyirdilər. Vassal müsəlman sülalələri həm də öz hərbi təzminatlarını, həm də titullarının təsdiqi üçün də bu vergini ödəyirdilər. Məsələn sultan Məlik-şah Şirvan dövlətindən onun hakimiyyətindən qurtulmaq cəhdinə görə 70000 dinar xəraç tələb etmiş, titulun saxlanılması isə Şirvanşahlara ildə 40000 dinara başa gəlmişdir.[6] Cizyə-qeyri müsəlmanların çan vergisi pulnan ödənilirdi. Bununla yanaşı bigər adlı vergi də geniş yayılmışdı ki, o da əmək mükəlləfiyyəti idi. Torpaq üzərində mülkiyyət formaları aşağıdakılardan ibarət idi: divani( dövlət torpaqları); xass ( hökmdarın ailəsinə məxsus);icma ( kənd icmasına məxsus);mülk (irsi torpaglar), vəqf (məscidlərə, ruhanilərə məxsus torpaqlar). XI-XII əsrlərdə iqta(xidmətə görə verilən torpaq) da geniş vüsət aldı, çünki Səlcüqluların əsas torpaq mülkiyyət növü idi. İqtanın əsasını hərbi qulluğa görə verilən hərbi iqtalar idi, Azərbaycanda onları nəinki Səlcuqlular, hətta Eldənizlər də verirdi. Vergidən azad, sülalə üzvlərinə məxsus şəxsi iqtalar da var idi ki,onlar hətta yeni siyasi vahidlərin yaranmasına gətirib çıxarırdı-Gəncə mərkəz olmaqla məlik Məhəmmədin hakim olduğu ərazi, Eldənizlər dövləti, Dərbəndə Şırvanşahlar sülalə nümayəndələrin torpaqları və s. XII əsr üçün daha kiçik şəxsi iqta torpaqlarının varlığını belı bir fakt təsdiq edir ki, Eldəniz Qızıl-Arslana təqdim etdiyi "Xosrov və Şirin" əsəri üçün dahi Nizami Azərbaycanda şəxsi iqta olaraq Həmduniyyən kəndini hədiyyə almışdı. İnzibati iqtalar da XI əsrin ikinci yarısında meydana gəldi və şəhər, vilayət, ölkə ölçüsündə verilə bilərdi Azərbaycanda bu Səlcuqlular tərəfindən Arran-Naxcıvan əmirliyinin Şəddadilərə, sonraklar Eldənizə verilməsində görə bilərik. Nəticədə Eldənizin hərbi və inzibati iqtası onun şəxsi varidatına çevrildi və onun yaratdığı dövlətin əsasını təşkil etdi.

## *Mədəniyyət*

XI-XII əsrlərdə Azərbaycan mədəniyyəti öz inkişafının çiçəklənmə dövrünü keçirirdi. Hələ Xilafət dövründə obyektiv amillər nəticəsində ümumi müsəlman

[6]Ravendi. Rahat us-Sudur ve Ayet us-Surur.Ankara. 1957-1960.s.30-32

mədəniyyətinə cəlb edilmiş azərbaycanlılar yeni tarixi şəraitdə təşəkkül tapmış «yeni incəsənət»in yaradıcılarından biri oldular. Elmi ədəbiyyatda şərti olaraq səlcuq inçəsənəti adlandırılan bu «yeni incəsənət»in vahid «səlcuq üslubu» məhz ayrı-ayrı xalqların, o cümlədən azərbaycanlıların öz ənənələrini bir-birinə ötürmələri nəticəsində yarandı.

Abşeron abidələri içərisində ən möhtəşəmi tikilmə tarixi haqqında bu gün də mübahisələrin kəsilmədiyi Bakı Qız qalasıdır.Onun yaşı Şumer dövründən tutmuş b. e. XII yüzilinədək muxtəlif dövrlərə aid edilir.

Təkcə Azərbaycanın deyil, islam ölkələrinin ən uca və incə kompozisiyalı türbələrindən biri dövrün məşhur memarı Əçəmi Əbubəkr oğlu Naxçıvaninin 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində ucaltdığı, indi də öz gözəlliyi və əzəməti ilə nəzəri cəlb edən, elin yaddaşında «Atabəy günbəzi» adı ilə qalan «Möminə xatun türbəsi»dir.

Araz çayı üzərində salınan körpülərdən ən məşhuru on bir və on beş aşırımlı Xudafərin körpüləridir[7]. XI-XII əsrlər ərzində Azərbaycan xalqı bir çox yüksək səviyyəli dekorativ sənət nümünələri yaratmışdır. Hazırda Gürcüstanın Gelati monastırında saxlanan Gəncə şəhər darvazasının dəmir hissələrini bu sənətin parlaq nümunəsi kimi göstərmək olar.

Bu dövrdə elmin və mədəniyyətin inkişafına dövlət səviyyəsində verilən düzgün istiqamət böyük Səlcuq dövlətinin hər yerində olduğu kimi Azərbaycanda da mədəniyyətin inkişafı üçün əlverişli şərait yaratmışdı. Səlcuqluların məşhur vəziri Nizamülmülkün bu sahədə atdığı addımlar xüsusilə təqdirəlayiqdir. 1067-ci ildə Bağdadda Nizamulmülkün bilavasitə özünün təşəbbüsü ilə açılmış «Nizamiyyə» mədrəsəsi dövrün ən başlıca elm ocağı - «universiteti» hesab edilirdi. Mədrəsənin tikintisi başa çatan kimi Nizamülmülk bu dövrdə artıq dərin bilikli mötəbər bir alim kimi tanınan azərbaycanlı Xətib Təbrizini mədrəsə kitabxanasının müdiri təyin etdi.

XI-XII əsrlər ərəb-müsəlma mədəniyyətinin, o cümlədən onun mühüm tərkib hissəsi olan ədəbiyyatın tarixində ən məhsuldar dövrlərdən biri kimi qiymətləndirilir. Bu mədəniyyətin yaradıcılarından olan Azərbaycan ziyalıları bir çox sahələrdə olduğu kimi, ədəbiyyat sahəsində də böyük nailiyyətlər qazanmış, ərəb və fars dillərində yazdıqları elmi-bədii əsərlərlə dövrün ümummüsəlman mədəniyyətini ən yüksək səviyyəyə qaldıra bilmişdir.

Azərbaycanın görkəmli mütəfəkkirlərindən biri olan Şihabəddin Yəhya əs-Sührəvərdi fəlsəfi traktatlardan başqa poetik divan da yaratmışdır. Lakin Xaqani zirvəsini fəth etmək, Azərbaycan poeziyasını daha yüksək zirvələrə çatdırmaq səadəti yalnız Nizami Gəncəviyə (1140-1214) nəsib oldu. Nizami yaradıcılığı Şərq xalqları ədəbiyyatının inkişafına böyük təsir göstərmişdir. Onun əsərləri orta çağ mədrəsələrində əsas dərslərin bir hissəsi olmuş, şairlər, ədiblər və tələbələr onlardan elm öyrənmiş,

---

[7] Ахундов Д.А.Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, 1987, с.98-112

onları əzbərləmişlər. Məhz Nizami dühası Azərbayçan poetik sənətini əlçatmaz zirvəyə qaldırmış, XII yüzili Azərbaycan intibahı əsri etmişdir.

Folklor nümunələri, o dövrdə yazıya alınmış «Kitabi-Dədə Qorqud» dastanları yaranan ədəbi əsərlərin mövzularına sirayət etdiyi kimi, xalq hikməti də fəlsəfi təfəkkürə təsirsiz qalmırdı, əsrlərin sınağından çıxmış müdrik kəlamlar elmi düşüncələrə belə nüfuz edirdi.